**“Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və onlardan istifadə Qaydaları”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 280 nömrəli Fərmanının 1.13-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və onlardan istifadə Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 5 iyun 2006-cı il
136

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2006-cı il 5 iyun tarixli 136 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və onlardan istifadə**

**QAYDALARI**

**I. Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının**

**S İYAHISI**

**1. Narkotik vasitələr**

1.1. *Morfin (əsası və duzları)*[1]
1.2. Trimeperidin
1.3. *Papaveratum (pantapon, omnopon)*[2]

**2. Psixotrop maddələr**

2.1. Pentobarbital
2.2. Siklobarbital
2.3. Barbital
2.4. Fenobarbital
2.5. Diazepam

**3. Prekursorlar**
3.1. Aseton
3.2. Etil efiri
3.3. Xlorid turşusu
3.4. Kalium permanqanat
3.5. Sirkə turşusu anhidridi
3.6. Sulfat turşusu
3.7. Toluol

**II. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının baytarlıqda istifadəsi**

**QA YD AL AR I**

2.1. Narkotik vasitələr baytarlıqda şiddətli ağrılar verən bir sıra xəstəliklər, yaralar, yanıqlar, çıxıqlar, sınıqlar, peritonit, qaraciyər, öd və mədə-bağırsaq sancıları, bağırsaq daşları, entorospazmlar və cərrahi əməliyyatlar zamanı ağrıkəsici və sakitləşdirici preparat kimi tətbiq edilir.

2.2. Psixotrop maddələr çox ürkək və həyəcanlanmış heyvanlarda baytarlıq əməliyyatları apardıqda, narkotik vasitələrlə kombinə edilərək və ya müstəqil olaraq heyvanı sakitləşdirmək və stress vəziyyətini aradan qaldırmaq məqsədilə işlədilir.

2.3. Prekursorlar baytarlıqda cərrahi əməliyyatlar zamanı (etil efiri), laboratoriya işlərində üzvi həlledici (etil efiri, aseton, toluol) və reaktiv kimi (xlorid turşusu, kalium permanqanat, sirkə turşusu anhidridi, sulfat turşusu) işlədilir.

2.4. Bu Qaydalarda nəzərdə tutulmuş narkotik vasitələr apteklərdən xüsusi reseptlər (1 nömrəli əlavə) əsasında (bu

zaman narkotik vasitələrin miqdarı həm rəqəm, həm də sözlə yazılır), psixotrop maddələr isə tələbnamələr, qaimələr və baytar-həkimin yazdığı resept nüsxələri əsasında buraxılır.

2.5. Elmi tədqiqat, elmi nəzarət və tədris müəssisələrində baytarlıq laboratoriyaları üçün narkotik vasitələr *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin müvafiq regional bölməsinin* rəsmi icazəsi ilə buraxılır.[3]

2.6. Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, buraxılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 57 nömrəli qərarı ilə tənzimlənir.

"Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının Siyahısı və onlardan istifadə Qaydaları"na

**1 nömrəli əlavə**

**Narkotik vasitələrin xüsusi resept nüsxəsinin**

**FORMASI**

Tərkibində narkotik maddə olan dərman almaq hüququ verən resept

**Adı** **000000**
**(Baytarlıq müəssisəsinin ştampı)**

____________________200_______ il

Xüsusi qeydiyyat sənədi — Resept aptekdə qalır

**Rp:**
___________________________________________________________
___________________________________________________________
___________________________________________________________
___________________________________________________________

**İşlətmə qaydası** ___________________________________________________________
___________________________________________________________

**Heyvan sahibinin** ___________________________________________________________
adı, soyadı ___________________________________________________________
**Heyvanın növü** ___________________________________________________________
**Baytar-həkimin** ___________________________________________________________
adı, soyadı

M.Y.

Mürəkkəblə doldurulur.
Düzəlişə icazə verilmir.

**Qeyd.** Blank xüsusi nişanları olan çəhrayı rəngli kağızdan hazırlanır.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 1 dekabr 2018-ci il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 dekabr 2018-ci il, 274** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2721**)
2. 7 iyul 2021-ci il tarixli **196** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 iyul 2021-ci il, 140, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-cı il, 7, maddə 859**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 7 iyul 2021-ci il tarixli **196** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 iyul 2021-ci il, 140, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 859**) ilə "Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və onlardan istifadə Qaydaları"nın 1.1-ci bəndində "**Morfin və duzları**" sözləri "**Morfin (əsası və duzları)**" sözləri ilə əvəz edilmişdir.

[2] 7 iyul 2021-ci il tarixli **196** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 iyul 2021-ci il, 140, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-cı il, 7, maddə 859**) ilə "Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və onlardan istifadə Qaydaları"nın 1.3-cü bəndində "**Omnopon**" sözü "**Papaveratum (pantapon,**

**omnopon**)” sözləri ilə əvəz edilmişdir.

[3] 1 dekabr 2018-ci il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 5 dekabr 2018-ci il, 274**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2721**) ilə “Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və onlardan istifadə Qaydaları”nın II hissəsinin 2.5-ci bəndində “**müvafiq rayon baytarlıq idarələrinin rəhbərinin**” sözləri “**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin müvafiq regional bölməsinin** ” sözləri ilə əvəz edilmişdir.